# Kiçik və orta sahibkarlarin hüquqlarinin məhkəmə müdafiəsinin mövcud vəziyyətinin monitorinqi üzrə HESABAT

**ABİL BAYRAMOV**

Bakı

18 fevral, 2015

# Monitorinqin məqsədi və metodologiya

- Monitorinqin aparılmasında əsas məqsəd *kiçik və orta sahibkarların dövlət orqanları və digər subyektlərlə münasibətlərdə hüquqlarının məhkəmə müdafiəsi vəziyyətinin öyrənilməsi, qiymətləndirilməsi və təkmilləşdirilməsidir*.
- Monitorinq əvvəlcədən hazırlanmış xüsusi metodologiya əsasında aparılıb.
- Monitorinq zamanı məlumat əldə etmənin aşağıdakı formalarından istifadə olunub:

- Anket sorğusu;
- Dərinləşdirilmiş müsahibə;
- Bilavasitə müşahidə.

# Kiçik və orta sahibkarların hüquqlarının məhkəmə müdafiəsi zamanı hüquq tətbiqetmənin əsas problemləri

- ***Müdafiə üçün məhkəməyə müraciət etmək hüququ*** bütün şəxslər, o cümlədən sahibkarlar üçün qanunla tanınsa da bir sıra hallarda sahibkarlıq subyektləri bu hüquqdan istifadə etməyə kifayət qədər təşəbbüs göstərmirlər.
- ***Sahibkarların müraciətlərinin məhkəmələr tərəfindən icraata qəbul edilməsi*** ilə bağlı çoxsaylı problem aşkar edilməyib.
- Bir sıra hallarda ***məhkəmə sənədlərinin çatdırılması və rəsmi qaydada verilməsi*** ilə bağlı qanunvericiliyin tələblərinə əməl olunmur.
- ***Məhkəmə proseslərinin vaxtında başlanmaması*** hallarına tez-tez rast gəlinir.
- Məhkəmə baxışı zamanı lazımsız ***təxirəsalmalar*** olur.

# Kiçik və orta sahibkarların hüquqlarının məhkəmə müdafiəsi zamanı hüquq tətbiqetmənin əsas problemləri

- Bir qayda olaraq məhkəmələr qanunvericiliyin ***qərardadın surətinin işdə iştirak edən şəxslərə verilməsi*** ilə bağlı müddəasına əməl edirlər. Bəzi hallarda qərardadın surətinin verilməsi ilə bağlı müəyyən olunmuş müddətə əməl olunmur.
- ***Məhkəməyə etiraz***la bağlı təcrübədə ciddi problemlər mövcuddur. Məhkəməyə etirazın MPM-in 22-ci maddəsində nəzərdə tutulmasına baxmayaraq etirazlar bir qayda olaraq təmin edilmir və baxılmamış saxlanılır.
- Müxtəlif instansiya məhkəmələrində KOS-ların tərəf olduğu işlərin araşdırılmasının vəziyyəti göstərir ki, heç də bütün hallarda ***ədalətli məhkəmə araşdırması*** təmin edilmir. Bu, ilk növbədə tərəflərin verdiyi vəsatətlərlə bağlı məhkəmlərin çıxardığı qərarlarla bağlıdır. Bir çox hallarda məhkəmələr heç bir əsaslandırma olmadan vəsatətləri rədd edir və ya onların qismən təmin edilməsi barədə qərar qəbul edirlər.

# Kiçik və orta sahibkarların hüquqlarının məhkəmə müdafiəsi zamanı hüquq tətbiqetmənin əsas problemləri

- KOS-ların hüquqlarının məhkəmə müdafiəsi zamanı ortaya çıxan ən ciddi problemlərdən biri konkret mübahisə üzrə ***işin hərtərəfli, tam və obyektiv araşdırılması*** ilə bağlı olmuşdur.
- Monitorinq prosesində ***sübutların qiymətləndirilməsi*** ilə bağlı ciddi problemlərin olduğu ortaya çıxmışdır. Belə ki, bir çox hallarda məhkəmələr tərəfindən sübutlar düzgün qiymətləndirilmir.
- Sahibkarların hüquqlarının məhkəmə müdafiəsi sahəsində müşahidə olunan problemlərdən biri də ***məhkəmə qərarlarının icrası*** ilə bağlıdır. Problem əsasən dövlət orqanlarına qarşı qaldırılmış və təmin olunmuş iddialar üzrə məhkəmə qərarlarının icrası zamanı ortaya çıxır. Məhkəmə qərarını icra etməli olan tərəf ya müxtəlif bəhanələrlə qərarı icra etməkdən yayınır, icra qurumları isə qərarı icra etdirməyə kifayət qədər təşəbbüs göstərmirlər. Bir sıra hallarda icra məmurları əsassız olaraq icranı yubatmaqla pozulmuş hüquqların bərpası imkanlarını çətinləşdirirlər.

# Kiçik və orta sahibkarların hüquqlarının məhkəmə müdafiəsi zamanı hüquq tətbiqetmənin əsas problemləri

- Bir sıra hallarda qanunvericiliyin özü ***məhkəmələrin ədalətli qərar çıxarmaq imkanlarını*** məhdudlaşdırır. Məsələn, İqtisadiyyat və Sənaye Nazirliyinin Əsasnaməsinə görə, Nazirliyin məcburi göstərişləri sahibkarlar tərəfindən icra üçün məcburidir və icra edilməməsi 4000-5000 manat maliyyə sanksiyasına səbəb olur. Məcburi göstərişin icrası üçün sahibkara nə qədər vaxt verilməsi qanunla tənzimlənmir, bunu inzibati orqan özü müəyyən edir, yəni inzibati orqan istərsə 5 gün, istərsə də 30 gün vaxt verə bilər. Məhkəməyə müraciət edilməsi, inzibati aktın icrasını dayandırmır, yəni hətta sahibkar ədalətsiz hesab etdiyi qərardan şikayət versə belə, o qərarı icra etməlidir. "İnzibati icraat haqqinda" qanunun 61.5.-ci maddəsinə əsasən, müəyyən hallarda inzibati aktın əsaslandırılması tələb olunmur.

# Sahibkarların tərəf olduğu məhkəmə işləri üzrə müraciətlərin xarakterinə görə təsnifatı

- ***Sahibkarlar ayrı-ayrı subyektlərlə münasibətdə yaranmış daha çox aşağıdakı mübahisələr üzrə məhkəmələrə müraciət edirlər:***
- Digər sahibkarlıq subyektlərinə qarşı. Daha çox müqavilə öhdəliklərinə əməl olunmamasına görə sahibkarlar arasında mübahisələr yaranır. Bununla yanaşı vurulmuş zərərin əvəzinin ödənilməsi, müqavilənin ləğvi və s. məsələlər üzrə də iddia tələbləri irəli sürülür.
- Fiziki şəxslərə qarşı. Sahibkarların fiziki şəxslərə qarşı iddiaları əsasən pul tələbi, qanunsuz zəbt edilmiş torpaq sahəsinin azad edilməsi, vurulmuş zərərin əvəzinin ödənilməsi və s. ilə əlaqədar olur.
- Dövlət orqanlarına qarşı. Sahibkarlar dövlət orqanlarına qarşı daha çox əsassız yoxlamalar, qanunsuz cərimələr, gömrük rəsmiləşdirmələri, icrası məcburu göstərişlər və s. ilə bağlı iddia tələbləri irəli sürürülər.

# Sahibkarların tərəf olduğu məhkəmə işləri üzrə müraciətlərin xarakterinə görə təsnifatı

- ***Ayrı-ayrı subyektlər tərəfindən sahibkarlara qarşı daha çox aşağıdakı mübahisələr üzrə məhkəmələrə müraciət edilir:***
- müqavilə öhdəliklərinə əməl olunmaması;
- vurulmuş zərərin əvəzinin ödənilməsi;
- müqavilənin ləğvi;
- əmək hüquqlarının müdafiəsi;
- mülkiyyət hüquqlarının müdafiəsi;
- sığorta ödənişlərindən əsassız imtina;
- lisenziya şərtlərinin pozulması;
- vergilərin və DSMF-yə ödəmələrin düzgün hesablanmaması və müəyyən olunmuş müddətdə ödənilməməsi;
- kommunal xidmətlərə görə ödəmələrin həyata keçirilməməsi və qanunsuz qoşulmalar və s.

# Mübahisələrin məhkəməyəqədər həlli formaları və prosedurlarının tətbiqi imkanları

- Monitorinq prosesinə cəlb olunmuş sorğu və müsahibə iştirakçıları münsiflər məhkəməsi institutunun təcrübədə işləmədiyini qeyd ediblər. Yalnız bəzi hallarda sahibkarlıq subyektləri öz aralarında yaranmış mübahisələrin danışıqlar vasitəsilə həllinə təşəbbüs göstərirlər.
- Mübahisənin məhkəməyə qədər nizama salınmasının *pretenziya* qaydasından istifadə geniş yayılmayıb.
- Monitorinq prosesinə cəlb edilmiş vəkillər, sahibkarlar, hakimlər və nümayəndəlik fəaliyyəti ilə məşqul olan şəxslər mübahisələrin məhkəməyəqədər həllinin münsiflər məhkəməsi formatını hazırkı şəraitdə ən uyğun forma hesab edirlər.

# Kiçik və orta sahibkarların hüquqlarının məhkəmə müdafiəsinin səmərəliliyinin artırılması istiqamətində təkliflər

- Sahibkarların tərəf olduğu işlər üzrə məhkəmə baxışı zamanı tərəflərdən hər hansı birinin məhkəmə qərarlarına qanunsuz təsir imkanlarını aradan qaldıran hüquqi vasitə və mexaanizmlərin düzgün tətbiqi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi.
- Konkret mübahisə üzrə işin hərtərəfli, tam və obyektiv araşdırılması üçün məhkəmələrdə hakimlərin sayının iş yükünə uyğun artırılması.
- Sahibkarların hüquqlarının məhkəmə qaydasında bərpa edilməsi üçün qanunla optimal müddətlərin müəyyən edilməsi.
- Məhkəmə qərarlarının icrası mexanizmlərinin təkmilləşdirilməsi.

# Kiçik və orta sahibkarların hüquqlarının məhkəmə müdafiəsinin səmərəliliyinin artırılması istiqamətində təkliflər

- Ərizənin baxılmamış saxlanmasının MPM-in 259-cu maddəsində nəzərdə tutulmuş əsaslarının yenidən nəzərdən keçirilməsi.
- Mübahisələrin məhkəməyəqədər həlli mexanizmlərinin təkmilləşdirilməsi.
- Sahibkarların maarifləndirilməsi istiqamətində sistemli işin aparılması.
- Sahibkarlar üçün universal telefon məlumat və məsləhət xidmətinin yaradılması.

Diqqətinizə görə təşəkkür edirik!